XX əsrin əvvəllərində Azərbaycan səhnəsində qadın rollarını kişi aktyorları ifa edirdi. Bu acı həqiqət XX əsrin 20-30-cu illərinə qədər davam edib. Sidqi Ruhullanın da ilk rolu Balaxanı dram dərnəyində H. Ərəblinskinin quruluş verdiyi və 1908-ci il dekabr ayının 21-də tamaşaya qoyulan Nəcəf bəy Vəzirovun "Adı var, özü yox" komediyasında Telli rolu olub (S. Ruhullanın səhnəyə çıxması 1906-cı ildə olub. Bu fakt S. Ruhullanın özünün xatirələrində, M. C. Cəfərovun, C. Cəfərovun, Ə. Əliyevanın kitablarında göstərilir. Lakin İ. Kərimovun, E. Şeyxzadənin və İ. Rəhimlinin tədqiqatlarında S. Ruhullanın səhnəyə çıxması 1908-ci ildən hesablanır. Biz qeyd elədiyimiz məlumatları mənbələrdə olduğu kimi göstəririk-İ.A.).






# Sidqi Ruhulla Nəcəf bəy Vəzirovun dramaturgiyasında



**İmran AXUNDOV,**
**fəlsəfə doktoru**

"Balaxanı dram dərnəyi "Adı var, özü yox" komediyasını tamaşaya hazırlamaq üçün aktyor-rejissor Hüseyn Ərəblinskini dəvət edib. Tamaşa 1906-cı il mart ayının 28-də (bəzi mənbələrdə 29 və 30 mart göstərilib-İ.A.) göstərilib. Tamaşada dövrün tanınmış aktyorları Əhməd Qəmərli-Məlikov, Ağalar Gərayboyov, Yusif Ağayev, Xəlil Hüseynov, Yunis Nərimanov, Rza bəy Məlikov iştirak ediblər. Sidqi Ruhulla (Axundov) ilk dəfə səhnəyə çıxıb və Telli rolunu oynayıb. Digər qadın rollarında Stepanova və Mixayılova çıxış ediblər...

Avqust ayının 6-da isə Nuxa (indiki Şəki-İ.A.) teatr həvəskarları "Yağışdan çıxdı, yağmura düşdük" komediyasını oynayıblar.

"...Sidqi birinci dəfə olaraq Vəzirovun "Adı var, özü yox" komediyasında Telli rolunda səhnəyə çıxdı. Bu zamandan gənc həvəskarın həyatının əsl məqsədi və mənası müəyyən edilmiş oldu. Həmin illərdən etibarən Sidqi bir müddət Bakının müxtəlif fəhlə rayonlarında çıxış edir, ara bir şəhərdə də tamaşalar verirdi. Sidqinin hələ ilk kiçik rolları onun fövqəladə bir istedada malik olduğunu aydın göstərirdi. Xüsusilə Ərəblinski Sidqinin talantına çox böyük qiymət verirdi. Ərəblinski Haqverdiyevin "Dağılan tifaq" faciəsininin bir əlyazmasını Sidqiyə bağışlayıb üzərində də yazmışdır: "Şagirdim Sidqi Ruhullaya"" (C. Cəfərov).

S. Ruhulla 1909-cu il aprel ayının 3-də yenə də Ərəblinskinin quruluşunda Bakıda "Dənizçilər kulubu"nda ("Morskoy sobranie") N. Vəzirovun "Müsibəti Fəxrəddin" faciəsində Rüstəm bəy rolunda çıxış etdi.

S. Ruhulla xatirələrində yazır ki; "1906-cı il martın 29-da (mart ayının 28-də-İ.A.) Balaxanıda "Balaxanski krujok" adlanan binada Ərəblinski bizimlə hazırladığı "Adı var, özü yox" komediyasını oynadıq. Ondan sonra "Müsibəti Fəxrəddin" pyesini hazırlayacaqdıq. Onda da Hüseyni bir rejissor kimi dəvət etməyi qərara aldıq. Biz öz rollarımızı yazıb, Hüseyni dəvət elədik. Hüseyn gəlib, rolları bölmək üçün, kitabı istədi. Biz "öz rollarımızı yazmışıq" deyə cavab verdik. Ərəblinski öz məğrur baxışı ilə hərəkət ədaları ilə üzümüzə baxıb və birdən qalxıb paltosunu götürərək dedi:

- Qayda budur ki, hazırlanan əsərin rolunu rejissor bölüb paylar. Əgər belə olmasa, mən gedərəm.

Biz hamımız onun sözünü qanun tutaraq "Müsibəti Fəxrəddin" kitabını onun qabağına qoyduq. O, rolları böldü, birinci mənim adımı çəkdi. "Rüstəm bəy böyük mülkədar"-Cənab Axundov. Mən özümü şaşıraraq "öz rolumu yazmışam" (mən həmin əsərdə ən balaca rol olan Rüstəm bəyin nökəri rolunu yazmışdım) deyə ayağa qalxıb rolumu ona göstərdim. O, halqa kimi fırlanan gözlərini mənə dikib, əsəbi halda dedi:

- Əgər mən verdiyim rolu qəbul etməsəniz, mən də gedərəm.

Mən, dediyimə peşman oldum və Rüstəm bəy rolunu oynamağa razı oldum.

Ərəblinski bu cür həvəskarlar ilə məşq keçəndə və onlara rejissorluq edəndə, bir rolu özü necə oynayırsa, həvəskarlara da o cür öyrədirdi. Çünki artist-həvəskar rejissor göstərişindən başqa rol hazırlamaq üçün material tapmırdı. Teatr materialları yox, teatr tarixi yox və təqlid etməkdən başqa heç bir əlac da yoxdur. Odur ki, Ərəblikski "Müsibəti Fəxrəddin" dramasında rejissorluq edərkən mənə nə göstəriş, necə hərəkət et demişdisə, mən də tamamilə onun təqlidini çıxarmışdım, hətta mənə demişdilər ki, Hüseyn Ərəblinski bu rolu hazırlayanda öz anasını qabağına qoyub məşq edərmiş. Mən də özümü Ərəblinskiyə oxşatmaq üçün, Rüstəm bəy rolunu hazırlayanda yorğanımı yerdə uzadıb "oğlum Mahmud bəy" deyə fəryad edirdim (bu hadisə mənim evdən qovulmağıma səbəb oldu). Mənim bu hərəkətlərimi eşidən Ərəblinski əlini çiynimə vuraraq "səndən çox şey gözləmək olar"-deyə məni öz evinə dəvət etdi. Həmin dəvət mənim professional aktyor olmağıma səbəb oldu".

H. Ərəblinski "Müsibəti Fəxrəddin" faciəsində Rüstəm bəy kimi mürəkkəb xarakterə malik olan obrazı Sidqiyə tapşırdı. Rüstəm bəyi ifa etməyə tərəddüd edən Sidqini Ərəblinski ürəkləndirib, rolun öhdəsindən gəldiyinə inandırdı.

Öz müəlliminə diqqətlə qulaq asan Sidqi Rüstəm bəy obrazı üzərində məsuliyyətlə işləməyə başladı. Rolu hazırlayarkən Sidqi bəzi çətinliklərlə üzləşdi. Lakin inadından dönmədi. Mütəmadi olaraq Ərəblinskiyə müraciət edib, ondan bəzi məsləhətləri alırdı. Sidqi ona tapşırılan işi yüksək səviyyədə yerinə yetirməli, böyük sənət sınağından şərəflə çıxmalı idi.

İlk tamaşası Bakının "Dənizçilər kulubu"nun zalında nümayiş olunan "Müsibəti Fəxrəddin" faciəsində Sidqi Rüstəm bəyi çox məharətlə ifa etdi, imtahandan müvəffəqiyyətlə çıxdı. Tamaşadan sonra Ə. Haqverdiyev, N. Vəzirov, H. Zərdabi və başqaları Sidqini təbrik etdilər.

Bu tamaşada gənc Sidqi müəllimi H. Ərəblinskinin sənətkarlıq ənənəsinə sadiq qalmışdı. O, Rüstəm bəyi canlı və təbii ifa etmişdir. Aktyorun oyununda bu obrazın daxili həyəcanları ilə hərəkətləri arasında bir bağlılıq var idi. Obrazın inandırıcı çıxmasının əsas amillərindən biri onun təsirli olmasında idi. Gənc aktyorun ifasındakı həyatilik və səmimiyyət tamaşaçıları heyrətləndirmişdi. Sidqi bu ilk mükəmməl obrazında realizmlə yanaşı romantizm boyaları da nəzərə çarpırdı.

"Ərəblinski hiss etmişdir ki, S. Ruhulla zəngin yaradıcılıq potensialına malik aktyor olacaq. O, müxtəlif əsərlərdə müsbət və mənfi obrazları böyük ustalıqla tamaşaçılara təqdim edəcək. Onun yaratdığı obrazlar təbiiliyi ilə fərqlənəcək. Sidqinin ilk səhnə addımlarına inandığı üçün Ərəblinski ona "Müsibəti Fəxrəddin" faciəsində Rüstəm bəy obrazını tapşırdı. "Bu, gənc aktyor üçün böyük bir səadət, eyni zamanda ciddi bir imtahan idi. Sidqi öz ustadları qarşısında parlaq bir imtahan verir. Ərəblinski ona: "İndi sən sənətkarsan, indi sən yarada bilərsən" deyir. Bakının qabaqcıl ziyalıları, yazıçıları, müəllimləri səhnə arxasına gəlib, gənc sənətkarı təbrik edirlər, onun sənətinə pərəstiş etdiklərini bildirirlər. Rüstəm bəy rolunda Sidqi hər şeydən əvvəl öz ifasının təbiiliyi, rolu dərindən hiss edib yaşaması ilə diqqəti cəlb etmişdir. Son səhnələrdə Sidqi-Rüstəm bəy daha təsirli, daha inandırıcı idi. Gənc sənətkar Rüstəm bəy rolunda Ərəblinskinin ləyaqətli şagirdi olduğunu sübut edirdi. O, hər cür yersiz, süni deklamatorluqdan uzaq idi. Hər bir hərəkətində, tənəffüs və ifadəsində son dərəcə təbii və inandırıcı idi. Bu tamaşadan sonra Sidqi hər şeyi buraxıb peşəkar aktyor olmağı qərara alır" (M. C. Cəfərov).

Sidqi Ruhulla həm də "Müsibəti Fəxrəddin" faciəsində Fəxrəddin (rej. M. M. Kazımovski, 11.12.1909, Bakı) rollarını ifa edib.

Sidqi Ruhullanın ifasında Fəxrəddin öz fikirlərini yeni elmi nüanslar üzərində qurmağa çalışan, kənddə təhsil ocaqları açmaq arzusu ilə yaşayan, orada baş verən ziddiyyətləri aradan qaldırmağa çalışan bir gənc idi. Fəxrəddin-Sidqinin təbliğ etdiyi bu yenilik, bu inkişaf öz şəxsi arzuları deyildir, həyatda baş verən hadisələrin nişanəsi idi. Cahilliyi aradan qaldırmaq, inkişaf, elm və mədəniyyət yolunu tutub, qabaqcıl insanların arzu və istəklərini təbliğ etmək arzusu ilə yaşayırdı. Köhnə cəmiyyətlə mübarizədə məğlub olan Fəxrəddin-Sidqinin məğlubiyyəti köhnəliyin qələbəsi kimi səslənmir, yenilik yayan qüvvələrin zəif olduğunu, kifayət qədər yetişmədiyini göstərirdi.

Akademik Məmməd Cəfər yazır: "Sidqi mürtəce və liberal mülkədarların sinfi təbiətini çox gözəl bilirdi. 1912-ci ildə Sidqi Bakıda bir gecədə, eyni bir tamaşada həm Rüstəm bəy, həm də Fəxrəddin rolunda sıxış etmiş və hər ikisində müvəffəq olmuşdur".

"Yaz mövsümünün sonunda (1912-ci il-İ.A.) Siqdi Ruhulla İrəvan şəhərinə qastrola gedib. Onun rejissorluğu və yerli həvəskarların yaxından iştirakı ilə burada "Müsibəti-Fəxrəddin" faciəsi göstərilib. Sidqi Ruhulla İrəvanda həm Fəxrəddin, həm də Rüstəm bəy rollarında səhnəyə çıxıb.

1910-cu ildə İrana ikinci dəfə qastrola gələn Sidqi Ruhulla Ənzəli, Qəzvin, Rəşt, Həmədan, Tehran, Şiraz, İsfahan şəhərlərində Ə. Haqverdiyevin, N. Vəzirovun, N. Nərmanovun əsərlərini tamaşaçılara təqdim edir.

"Sidqi Ruhulla 1910-cu ildə İranda uzunmüddətli qastrol səfərində olub. Aprel ayında Rəşt şəhərində təzə klubun açılışı münasibətilə təbdil edilmiş Köhnə məktəb" və Nəcəf bəy Vəzirovun "Ev tərbiyəsinin bir şəkli" məsxərələri oynanılıb. Bu münasibətlə "Həqiqət" (18 aprel 1910) qəzetində çıxış edən Əkbər Əliyev Sidqi Ruhullanın qastrolunun yüksək səviyyədə keçdiyini yazır. Onun fikrincə, Sidqi Ruhullanın İrana gəlişi bu ölkənin müxtəlif şəhərlərində teatr sənətinin tərəqqisinə və təkamülünə böyük təsir göstərib" (Ə. Əliyeva).

Orta Asiyaya uzunmüddətli qastrol səfərinə çıxan Sidqi Ruhulla 1916-cı il noyabr ayının 28-də Daşkəndin "Kolizey" teatrında yerli həvəskarlarla "Müsibəti-Fəxrəddin" faciəsini tamaşaya hazırlayıb. Xeyirxahlıq məqsədi ilə oynanılan bu tamaşada Fəxrəddin rolunu Sidqi Ruhulla özü ifa edib. Qalan obrazları isə yerli teatr həvəskarları tamaşaçılara təqdim ediblər.